# Azərbaycan elminin yüksək nüfuzunu nümayiş etdirən hadisə



Professor Hamlet İsaxanlı (İsayev) Gürcüstan Respublikası Elmlər Akademiyasının həqiqi (xarici) üzvü seçilib.

Hamlet İsaxanlı Gürsüstanda, Qardabani rayonunun Kosalı kəndində anadan olmuş, həmin məktəbi qızıl medalla, Azərbaycan Dövlət universitetinin mexanika -riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib.

Azərbaycan Elmlər Akademiyası Mexanika-riyaziyyat institutunun və Lomonosov Moskva Dövlət universitetinin aspiranturasında oxuyub, Sovet İttifaqı Elmlər Akademiyasının Steklov institutunda dissertasiya müdafiə edib elmlər doktoru dərəcəsinə layiq görülüb.

Hələ Sovet dövründə Kanada, Almaniya Federativ Respublikası, Böyük Britaniya kimi ölkələrə dəvət olunub, Operatorların Spektral Nəzəriyyəsi və Çoxparametrli Spektral Operatorlar üzrə mühazirələr oxumuş, beynəlxalq konfranslarda iştirak edib. Rus-sovet riyaziyyat məktəbini təmsil edən “Luzin ağacı”nın (Drevo Luzina) “Qelfand budağı”nda Azərbaycandan tək riyaziyyatçısı - Hamlet İsayevin adı həkk olunub.

Hamlet İsaxanlı 1990-1991-ci illərdə Azərbaycanın ilk özəl ali məktəbini- Xəzər Universitetini təsis edib və qurub, Xəzər Universiteti nəzdində Dünya məktəb kompleksinin həmtəsisçisi olub,

ABŞ, Türkiyə və Azərbaycanlı beş görkəmli elm və sənət adamı ilə birlikdə Avrasiya Akademiyasını yaradıb.

Hamlet İsaxanlı çox geniş yaradıcı fəaliyyəti ilə tanınıb. Onun yaradıcılığında humanitar və social elmlər üzrə tədqiqatlar böyük yer tutur.

Riyaziyyat və Riyazi fizikaya aid əsərləri Hamlet İsayev, digər sahələrdə əsərləri isə Hamlet İsaxanlı imzası ilə yazılıb.

O, elm və mədəniyyət tarixi, dil və ədəbiyyat, leksikoqrafiya və tərcümə, fəlsəfə tarixi və tarix fəlsəfəsi, təhsil tarixi və fəlsəfəsi üzrə çoxsaylı məqalə və kitabların müəllifidir.

Hamlet İsaxanlı bədii yaradıcılıq sahəsində şair, yazıçı və libretto müəllifi kimi geniş tanınmış, Azərbaycan və Rusiya bəstəkarları onun əsərləri üzrə popuylar mahnılar, balet və musiqili tamaşalar yazıb.

London Wiley nəşriyyatında işıq üzü görən “The Polymath” kitabında (Waqas Ahmed) Hamlet Isaxanlı dünya polimatları (çox sahədə yaradıcı fəaliyyət göstərən ensiklopedik bilik sahibləri) sırasında yer alıb.

Hamlet İsaxanlı əsərlərini rusca, ingiliscə, azərbaycan və Türkiyə türkcəsində yazmış, məqalə və kitabları müxtəlif dillərə tərcümə olunmuş, müxtəlif ölkələrdə dərc olunub.

Gürcüstan Elmlər Akademiyası Hamlet İsaxanlı yaradıcılığını öyrənmiş, onun üç sahə - riyaziyyat, elmmədəniyyət tarixi və dil-ədəbiyyat üzrə böyük uğurlara imza atdığını yəqin edib,

Hamlet İsaxanlının özü ilə məsləhətləşmə nəticəsində onu riyaziyyat üzrə akademiyanın həqiqi (xarici) üzvü seçib.

Akademiyanın prezidenti Qiorqi Kvesitadze Hamlet İsaxanlını Akademik adı alması, Musxelişvili, Vekua kimi şöhrətli Gürcüstan riyaziyyatçılarının təmsil olunduğu Gürcüstan Elmlər Akademiyasına seçilməsi münasibətilə təbrik edib.

***Hamlet İsaxanlıya can sağlığı və yeni yaradıcılıq və quruculuq uğurları arzu edirik.***

**Elvin KAMAL**